***RÜSTƏM RÜSTƏMOV***

*Əzizinəm o yana,*
*Bax bu yana, o yana.*
*Bilmirəm, neyləyim ki,*
*Yatmış baxtım oyana.*
(mövzu xalq bayatılarından)

# ***portretə cizgilər***

*(şeirlər toplumu)*

***Yaroslavl – 2021***

*Rüstəm* Rüstəmov

*Portretə cizgilər (azərbaycan dilində, şeirlər)*
*R. İ. Rüstəmov – Yaroslavl 2021, 103 səhvə*

*Bu kitabda müəllifin son iyirmi il ərzində öz doğma dilində müxtəlif mövzularda yazdığı şeirlər toplumu oxucu nəzərinə çatdırılır. Hər mövzuya aid şeirlər ayrı-ayrılıqda təqdim olunmuşlar. Kitabda müəllifin rus dilindən çevrilmiş bir neçə şeirləri də yer almışlar. Kitab haqda rəaynizi bu ünvana göndərə bilərsiniz:*

rustamov1952@mail.ru

©Rüstəm Rüstəmov (müəllif) 2021

## *Müəllifdən bir neçə söz*
## *Əziz oxucu!*

*Bu kitabça mənim doğma dildə işıq üzü görən yeganə və çox güman ki, son yaradıcılıq nümunəmdir. Şeir yazmaqla hələ məktəbdə oxuduğum illərdə məşğul idim, amma əfsuslar olsun ki, o zamankı yazılardan heç nə qalmayıb. Bunun da əsas iki səbəbi var: birincisi odur ki, hər şeyə olduğu kimi, yazı-pozu sahəsinə də laqeyd, biganə, (rəhmətlik müəllimlərim Qurban Suleymanov və Rəsul Mehdiyevin dilləriylə desəm), lağ-lağı münasibətimdir; İkincisi də heç bir şeylə müqayisə olunmaz tənbəlliyimdir. Bir yazı-pozu edəndə onu bir dəftərə köçürüb saxlamaq mənim üçün ən məşəqqətli bir iş idi, odur ki, yazılan elə yazıldığı yerdəcə itib batırdı. Bu baxımdan rus dilində olan yazıların bəxti nisbətən ağ oldu, onlardan "sağ qalanlar" daha çoxdur. Burada son iyirmi- iyirmi beş ildəki yazılar yer almışlar.*

*İstərdim ki buradaca qohum qardaşa, dostlara ürək sözlərimi çatdırım. Qardaşım Novruza, əmimoğlu Nəbiyə və dostlarım Ayaz Əbdülrəhimova, Kokourov Sergeyə, Prokofyev Vladimirə göstərdikləri maddi və mə'nəvi köməklərinə görə ürəkdən minnətdarlığımı bildirirəm və sağ olun deyirəm.*

*Bütün texniki-tərtibat və təshih işlərini təmənnasız olaraq öhdəsinə götürüb, bacardığı qədər yüksək səviyyədə yerinə yetirdiyi üçün həmyerlim Elçin Qasımovun zəhmətini ayrıca qeyd etmək istərdim*

*Ненаписанное предисловие.*

*Как я уже писал ранее, стихами увлекаюсь с детства. У тех, кто знаком со мной давно, еще со школы, возникнет вопрос, почему об этом они не знали; потому, что не люблю известности, хвастовства. Скажу по секрету, в то время также пытался писать и на русском языке и сочинил два или три стиха. А потом жизнь сложилась так, что, пришлось писать почти всегда на русском языке и изредка- на родном, разве что стишок какой, о чем- то самом сокровенном. Тем не менее, хочу отметить одну особенность: пишу я на азербайджанском языке, только использую словарный запас русского. Почему же сейчас пишу на русском, ведь сборник на родном языке? Мне очень утомительно писать нашим новым алфавитом, поверьте это так, стихи еще как- то удается осилить, там короткие строки, в столбик, и, меняются друг за другом быстро, а прозой не очень удается. Еще одно, и это самое главное – этого текста не было бы вообще, если бы не одно печальное событие: смерть Эльчина Гасымова, вложившего много сил и труда в эту книгу. Сейчас об этом и поведу речь.*

*Это было в начале 2018 года. На мою страницу,*

*на сайте «Одноклассники», пришло сообщение от него, где спрашивал, не тот ли я Рустам, из Чайкенда, и после этого мы стали общаться. Когда узнал, что балуюсь письмом, попросил сбросить ему свои работы для прочтения, что я сделал с превеликим удовольствием. Позже как-то в ходе беседы сказал ему, что пишу также на родном языке, это его заинтересовало еще больше, и попросил их тоже сбросить ему. Я, конечно же, пообещал, но вовсе не спешил делать это, а причина была вот в чем.*

*Письмо было безобразное, в первую очередь из-за орфографии, потому что, пользовался алфавитом как русского, так и английского языка. Когда в очередной раз он настоятельно попросил сбросить ему сборник (если уместно так назвать), признался ему, что там все безграмотно написано, поскольку в ноутбуке нет современного азербайджанского алфавита. Он долго посмеялся, прямо от души, потом позвонил по телефону (номерами мы обменялись в первый же день), моими руками установил мне на ноутбуке наш новый латинский алфавит, более того вызвался перевести мои стихи с азербайджанского на… азербайджанский. Только после этого сбросил ему рукопись.*

*Сначала перевел на нормальный алфавит, я перепроверил, потом снова скинул ему для*

*окончательной корректировки. Через некоторое время получил завершенную работу и приступил к верстке. Перед Новым годом, наверное, в начале декабря закончил верстку и позвонил ему, чтобы «доложить» о готовности рукописи для печати (мы и без того часто перезванивались по видеосвязи), тогда велел немного подождать (если есть возможность), потому как хочет написать предисловие от себя. Я тогда ответил, что есть и возможность, и время, практически не ограничено. На том и решили, и продолжали время от времени общаться по видеосвязи. В это же время перевел несколько четверостиший из моего первого сборника, скинул мне и спросил, нравится ли мне перевод. Я ответил, что нравится, и просил у него разрешения включить в этот сборник. Он согласился, и эти куплеты включены в раздел переведенных с русского языка стихов.*

*Недели две назад, внимательно вглядываясь внутрь себя, написал одно стихотворение и тоже отправил ему, как говорится, для оценки, а также для перевода по возможности. Предлагаю Вашему вниманию данную работу, и пусть это стихотворение будет подарком моему другу.* Стихотворение называется:

*Гимн*

*Что есть добро, а что зло-*
*Это не мое, а Бога дело.*
*Если бы я все это знал,*
*Ты меня Богом бы назвал?*

*Не спеши выносить решение*
*Кому- то в угоду иль же назло!*
*Мое сегодняшнее согрешение,*
*Может, окажется вовсе не зло!*

*«Не суди и судимым не будешь!»-*
*Говорится в Священном Писании.*
*Будь внимателен: ведь забудешь*
*Часть грехов в жизнеописании!*

*Как за грехи, так и за благодеяние*
*Обязательно будет всем воздаяние.*
*Кто звал в грех, кто к благочестию-*
*Выражаю всем свое благодарение!*

*Широка душа моя- непочатый край,*
*Есть в ней уголочек и для Беса.*
*Потому не хочу не в ад и не в рай,*
*Через крематорий вознесусь в небеса!*

*С уважением, автор*

## *O, saf məhəbbət! Sən həyat mənbəyisən*

*Bu bölməyə daxil olan rubailər, kupletlər və şeirlər bütün canlıların həyat mənbəyi olan sevgiyə, məhəbbətə həsr edilmişlər*

*Yeddi bacı*

Eyvana çıxanda siz yeddi bacı,
Kaş məhəllənizdən kecəydim, ay qız.
Yaraşar zülfünə gözəllik tacı,
Səni yar deyərək, seçəydim, ay qız.

Payızda sümbüllər dənə dolanda,
Oraqla zəmiyi biçəydim, ay qız.
Ayran tuluğunu alıb əlindən,
Dolçanı doldurub içəydim, ay qız.

Çobanlıq edəydim heybə çiynimdə,
Qayalar dibində yataydım, ay qız.
Bürünüb səninlə bir yapancaya,
Nəhayət arzuma cataydım, ay qız.

Səninlə yuxuda yatıb qalaydım,
Quzuyu qoyuna qataydım, ay qız.
Atan da deyəndə - göndər elçini,
Sürünün yarsını sataydım, ay qız.

Qaranlıq düşəndə gələydim qonaq,
Cəftəni mənimcün açaydın, ay qız.
Nənənin səsini eşitcək tezdən,
Düşüb pəncərədən qaçaydım, ay qız.

Uzun qecələr gözünün işıgı,

Gözümdə şimşəktək çaxaydı, ay qız.
Bir-birimizə eşq töhvə edəndə,
Ulduzlar həsədnən baxaydı, ay qız.

Neçə min gözəlin əhatəsində
Vallah, təkcə səni arardım, ay qız.
Eşq şərbətin içib, ürək dolusu
Telini əlimnən darardım, ay qız.

Uzaqdan uzağa məni görəndə,
Yollarıma işıq saçaydın, ay qız.
Yanağından öpüb, qucaqlayanda,
Qollarını geniş açaydın, ay qız.

Gəzəndə ikimiz sənnən meşədə,
Həm turş meyvələrdən yeyəydin, ay qız,
Şübhəynən baxanda mən də üzünə,
Sevin, körpəmiz var – deyəydin, ay qız.

Eşqin bəslədiyi xəyal bağında
Çiçəksən, heç zaman solmazsan, ay qız.
Çox axtardım səni, cavan çağımda,
Hayıf, tuş olmadın, olmazsan, ay qız.

□□□

*Ay yar*

Bağda qızılgülü dərəydim, ay yar.
Gəldiyin yollara sərəydim, ay yar.
Qoynunda bitən o bir cüt narını,
Titrək əllərimlə  görəydim, ay yar.

Edərmi taledən kimsə şikayət,
Uyusa hər gecə yar qucağında.
Duymaz əsla əzab, nə də əzziyyət,
Cəhənnəmin belə gur bucagında.

□□□

*Sənə can deyərəm*

Olsaydın əgər yüz il də belə mənimlə,
Ona, günəşə baxdığım bir an deyərəm.
Bir namə qöndər, olsun bircə söz- sevirəm,
O tək sözünə kəlmeyi Quran deyərəm.

Qasidinə sənin, canı qurban deyərəm,
Anmısan, ona- şərəfi dövran deyərəm.
Naməndə mən oxuyam ki: sevirəm səni,
Vallah, namənə kitabi-Quran deyərəm.

Hər sözünə cavab- sənə tək can deyərəm,
Yanağna lalə, qözlərinə mərcan deyərəm.
Olsan da mənimlə, olmasan da yox fərqi,
Adına bir hiss – ona həyəcan deyərəm.

*Yadındamı*

Yadındamı? Evin arxası yaşıl bağıydı,
Səhərlər səni salamlayan uca dağıydı.
Səninlə güzgüdə danışan ağsaçlı kimdi?
Tanımadın? O vaxt balaca bir uşağıydı!

Qayğıyla dolu, xoş zamanlar necə tez keçdi!
Uşaq yox, a qardaş, o cavan bir oğlanıydı.
Gözaltı baxıb kənddə özünə yar da seçdi,
O vaxtlar ata da, ana da hələ sağıydı.

Sonralar çox- çox uzaqlara düşdü yolları,
Çıxmadı yadından qarağat, göyəm kolları.
İnandı ülvi məhəbbətə, sadiq dostluğa,
Elə o vaxtdan da, açıla qaldı qolları.

Sevgi qapısını üzünə açan olmadı,
Gözlərdən gözlərinə işıq saçan olmadı.
Talenin üzünə baxaraq dimdik durardı,
Özü də, tutduğu yoldan heç qaçan olmadı.

□□□

*Təranə*

Təranə, ay Təranə,
Ay qız, qulaq as mənə,
Dünən səni öpəndə,

Deyəsən qörüb nənə.

Təranə, ay Təranə,
Sən alov, mən pərvanə,
Ölərəm həmən saat,
Qalsan mənə biqanə.

Təranə, ay Təranə,
Deyim sənə dürdanə.
Gəl məndən üz cevirmə,
Olar qəlbim viranə.

Təranə, ay Təranə,
Çoxdan vurğunam sənə.
Ay qız, sənin bu eşqin,
Edər məni divanə.

□□□

*Kupletlər, rubailər*

Bircə baxışınla bəxş eylə mənə nuri rəhman,
Bəlkə viranə könlümdə bərqərar olsun səhman,
Sevqisiz bikar canım, ərmağandı sənə, apar.
İnsaf elə, ey yar, qal yanımda bir gecə mehman.

□□□

Məhəbbət, mənbəsən, həyat verirsən,
Aşiqləri sevdirib, həm güldürürsən.
Onda anlat bizə, necə olur ki,

Sadiq qullarını sən öldürürsən?!

□□□

Məhəbbət, əcayib bir kəmiyyətsən,
Tüm canlı aləmə bir keyfiyyətsən!
Neçə pərvanələr yandı odunda,
Yenə də doymursan, çox kəmniyyətsən!

□□□

Girmişdim xəlvətdən yarın bağına
Qonmuşdu qaranquş nar budağına.
Neynirdim şərabı, icərdim balı,
Söykəyib dodağmı yar dodağına.

□□□

Gözəlim, kaş tutaydım sənin əlini,
Durnalar asimanda dövrə vuraydı.
Deyirəm, olaydın ki, anam gəlini,
O da, sənin adına qonça quraydı.

□□□

O vaxtdan ki əqlin apardı Leyli,
Qurşandı şəraba marağı, meyli.
Bu fani dünyaya get, rədd ol, deyib,
Baş vurur həyatı sərsəm, tüfeyli.

□□□

Çaylar daşıb coşa gəlir,
Yar yarınnan qoşa gəlir.
Görəndə bu mənzərəni
Cümlə cahan xoşa gəlir.

□□□

## ***Allah sənə rəhmət eləsin Sabir əmi***

*Kimsəki arxanca edirsə qeybət,*
*Çəkinmədən danış, birbaş özüylə.*
*Çoxdu qəlizliklər, edər kifayət,*
*Sən onlara, bax Sabirin gözüylə.*

*Sabirə müraciət*

Sabir əmi, icazə ver işlədim,
Xəzinəndən üççə qızıl sözünü.
Tirboyunlar, şişqarınlar, canlılar,
Çıxardırlar basıb xalqın gözünü.

Tirboyunlar, şişqarınlar, canlılar,
Vallah, bunlar xalqın cannı alırlar.
Ha yeyirlər, ha icirlər, doymurlar,
Bir kimsəyi ğöz açmağa qoymurlar.

Tirboyunlar, şişqarınlar, canlılar
Bir kər olsun xalqı yada salıblar?
Ar namusu onlar qoyub tabuta,
Qapağına üç dənə mıx çalıblar.

Tirboyunlar, şişqarınlar, canlılar
Bu gün, sabah arzularna çatarlar.
Çox qalmayıb, ölkə yeylib talanıb,
Qalannı da, bu gün, sabah satarlar.

Tirboyunlar, şişqarınlar, canlılar,
Puldan ötrü qırğın belə salırlar.
Ömrü boyu xalqı soyub talırlar.
Son tikəni bogazindan alırlr!

Tirboyunlar, şişqarınlar, canlılar,
İnanmaki yeyib bir gün doyarlar.
Hər gələni quldur kimi soyarlar.
Yetimin də malına göz qoyarlar!

Tirboyunlar, şişqarınlar, canlılar,
Fürsət edib xalqın cannı alarlar.
Söndürürlər elin ocaq közünü,
Nalə odu alovuna yanarlar.

Tirboyunlar, şişqarınlar, canlılar,
İnanmaki Tanrı yada salarlar.
Qurtarsalar da indi onlar canını,
Cəzalarnı qiyamatda alarlar.

□□□

*Ümumi duruma baxış*

Qanun sayan yoxdu, dost- aşnalıqdı,
Prokurorluqda da özbaşnalıqdı.
Bizim təbabətə düşməsin yolun,
Orya yolu düşən, o dünyalıqdı.

Təhsil yan üstədir, təhsil can verir,
Bir çörək puluna aydın qan verir.
Quduz məmurları qörəndə vallah,
Ürək dözə bilmir, həyəcan verir.

Bitməkdədir artıq elmin ömürü,
Mədəniyyət yanıb, cıxıb kömürü.
Yerüstü sərvətlər yeylib, icilib.
Yeraltının qalıb azca sömürü.

Mənəviyyətdən də danışmaq gərək,
Gözə girmək üçün çalışmaq gərək.
İdman məmurların vecinə deyil,
Onlara rüşvətdən yarışmaq gərək.

DIN də, MTN də harınlaşıbdı,
Cavan leytenantlar qarınlaşıbdı.
Amandı, qoyman, gedir ölkə əldən,
Nazirlərnən krimnal yarımlaşıbdı.

□□□

## *Kim nə görür yuxuda*

Ac toyuq yatanda yuxuda yalnız darı görür,
Qış quraqlıq keçəndə kəndli isə qarı görür.

Mışovul vurnuxur, baş vurur hər dəlmə-deşiyə,
Verib özün yuxuya, dən dolu ambarı görür.

Göllərdə qur-qur edib quruldayır qurbağalar,
Yatanda qorxudan onlar, həmişə marı görür.

Fani dünyaya nəşəxor baxır öz baxışıynan,

Yatsada, yatmasada, tək qolda damarı qörür.

Çəkilir yuxusu, yata bilmir, qıvrılır əsgər,
Ayıq, yuxulu, yox fərqi – yalnız niqarı görür.

Vəfasızla yaşayanın xoş kecməz bircə günü
Həyat boyu o zavallı, yalnız ah-zarı görür.

Heç bir yerə olmaz buraxmaq yaxına mollanı,
O alçaq düz yolda da belə, boş məzarı görür.

Xəstənin olmaz əsla heç bir kimsəyə inamı,
Verilən hər həbdə, o yazıq zəhrimarı görür.

İlan vuranın əsla tərk etməz qorxu canını,
Ala catıda da, o zavallı şahmarı görür.

Özünü qartal sanıb, çal xoruz deyir uçacam,
Baxıb zirvələrə, yalnız, yatmağa tarı görür.

Anqırır  boz eşşək, deyir, dinləyin, oxuyuram,
Yediyi hər qanqalda bənövşəni, xarı görür.

Sərçə civ-civ, civildəyir, dən axtarır özünə,
Özündən bir az böyük hər kölgədə sarı görür.

Vurulur bir şux gözələ bağ becərən baxcəvan,
Baxıb qoynuna yarın, bağdakı cüt narı görür.

Vəzifə nərdivannın pilləsinə ayaq qoyunca,
Bişərəf baxıb aynaya, xalqa sərdarı görür.

Bəzi bekarlar edərək bir neçə cızma qara
Baxıb yazdığına, kəndində Şəhriyarı görür.

□□□

*Kəmsavadın şikayəti*

Boçkanın qiyməti gah ucuzlaşır,
Boçkanın qiyməti gah bahalaşır,
Qardaş anlamıram, nə fırıldaqdı?
Bütün millət ancaq bundan danışır.

Diriyib ayaqlarnı bir toçkaya,
Zilləyib gözlərni qara boçkaya.
Gedir, tənəzzülə ekonomika,
Təkər ilişəncək kiçik koçkaya.

Boçka var çox ölkədə, hamı satır,
Orda da qiymətlər baş-ayaq atır.
Nəsə millət bunu vecinə almır,
Rahat yemək yeyib, yuxusun yatır.

Zənitdi camahat, hərə bir işnən,
Hər kəsin var yolu, yoxuş enişnən
Kim işlər zavodda, kimsə əkində,

Dolanır kimsə də aliş - verişnen.

Nejə anlayasan bu gedişatı,
Elə bil gic sayırlar tüm camahatı.
Qalmışıq ortada imdadımız yox,
Gedir inkişafa doğu, həm batı.

Rastlaşırsan hərdən tanış bilişnən,
Vaxt öldürür onlar gediş gəlişnən.
Hamı obmennikin qabağındadır
Niyə deyil millət, məşğul bir işnən?

Vaxt vardı, pul verib, qul alırdılar,
Cavan qız gəlməsə dul alırdılar.
O gün gördüyümə mat qaldım özüm,
Bazarda pul satıb, pul alırdılar.

Bilməm, harya aparır bu yol bizi,
Car çəkirik, tüklənmişik, yol bizi.
Vəziyyətsə xaraflayır gün-gündən,
Varmı bilməm qurtarmağa qol bizi.

□□□

## *Yolumuz Yevropayadır*

Boylanırıq gah sağa, və gah sola,
Çıxdıq axır Yevropaya səmt yola.
Azaltmaqçün yükümüzü azcana,

Abtavayı vızıldatdıq bir kola.

Mane olman, yeni dövlət qururuq,
Demokratik him üstündə dururuq.
Yevropalı olmaq üçün tamamən,
Bala-bala konyak, viski vururuq.

Qulluqdayıq çox  ali bir mərfətə,
Göz zilləyib hamı bizim sərvətə,
Hərtərəfli biz varlıyıq, zənginik,
Söz tapılmaz bizdə olan qeyrətə!*

Məmur olcaq çox hərisik rüşvətə,
Onu alcaq, tez gəlirik vəhdətə.
Kimsə bizə heç bir irad tutammaz,
Quş qoymuşuq mitinqə və töhmətə.

Başımıza məcarələr taparıq,
Görünməmiş çox işləri yaparıq.
Namus sözü şəmsiyədi bizimçün,
Qız gəlini baltalayıb çaparıq.

Adi sözdən dəniz kimi coşarıq,
Hər ötənə bir süpürgə qoşarıq.
Yevropaya çatmışıq çox sahədə
Bir arvad alıb, ikisini boşarıq!

□□□

---

***kim nə deyər bizdə olan qeyrətə (M. Ə. Sabir)**

*Ağılar*
(milli pulumuza)

Əzizinəm, a manat,
Müqəddəsdir amanat.
Sən cavan ikən öldün
Mən tək qaldım, a manat.

İgid mindiyi atdı,
Düşmən mənə ox atdı.
Dəryada kimsə batır,
Baxın, bəlkə manatdı.

Aşıq vurğundu saza,
O baxmaz çoxa, aza.
Dollara verməzdik yol
Manata qəbir qaza.

Göldə sonalar üzür,
Gözəllər gözün süzür.
Dollar ilə davada
Manat özünü üzür.

Əzizinəm az alır,
Bəy gəlindən naz alır.
Qiymətlər yüksəldikcə,
Cibdə manat azalır.

Manat, manat, ay manat,
Yoxdu sənə tay, manat.
Karsan bilməm, yoxsa lal,
Bir ver bizə hay, manat.

Əzizinəm, say manat
Varmı sənə say, manat.
Çox yalvarıb yaxardım,
Bizi adam say, manat.

Manatım, ay manatım,
Umudum, amanatım.
Bütün xalq oldu xəstə,
Verin həb, mən də atım.

İgid yıxılar atdan,
Qeybət gələr arvatdan.
Deyin, nə oldu birdən,
Manat düşdü urvatdan?

Əzizim de, kim yatdı?
De, kim durdu, kim yatdı?
Qonşu düşdü çox yavaş,
Manat qəfildən yatdı.

Əzizinəm az gəlir,
Göldən ördək, qaz gəlir.
Manatın məzənnəsi,

İndi yaman az gəlir.

Varmı çarə pis günə?
Düşməyəsən pis günə,
Manat öldü, biz qaldıq,
Lap pisdən də pis günə.

Əzizim hara qaldı,
Gəzmədim hara qaldı.
Manatın dirçəlməyi
Gələn bahara qaldı.

Əzizim daray vurur,
Qız saça daray vurur.
Manat öləndən bəri,
Millət nə haray vurur.

Qəlb kövrəldi, sıxıldı,
Kövrəldi, həm sıxıldı.
Rus təriflədi, dedim,
Manat bu gün yıxıldı.

□□□

## *Oğlanlarıma müraciət*

*Adam var ki qanmaz olur,*
*Kimliyini anmaz olur.*
*Adam var ki, suda batmaz,*
*Odda isə yanmaz olur.*

Deməyə neçə söz vardı, ay oğul,
Vəziyyət olduqca dardı, ay oğul.

Bir kimsə yoxdu ki, kömək umasan,
Tanrı da eşitmir, kardı, ay oğul.

Sizə təmənnasız cəkmişəm zəhmət,
Deyil ki öləndə, deyəsiz rəhmət.
Kim bilir, bəlkə də gələcək bir gün,
Olacam sizincün hədəfi ləhnət.

Nə eviniz vardı, nə də yurdunuz,
Çox tez də evlənib, ailə qurdunuz.
Danlayıb, söyəndə arvadlar sizi,
Bir cavab vermədən, sakit durdunuz.

Hər ildə təzə bir arvad aldınız,
Məni artıq- artıq xərcə saldınız.
Eldə bir söz var – təri qurumamış
Kəhəri gündə bir dama daldınız.

Oslodan ki tutmuş Bakıya qədər,
Qəzmisiz hər yanı şəhərbəşəhər.
Anlarsız ki ömür kecib mənasiz
Sıxar sizi xiffət, və boğar qəhər.

Çəkdiniz sinəmə siz dagi- peykan
Biriniz türməni edibdi məkan.
Yolu düzgün qetmək mümkün deyilmiş,
Əyrisə əlində tutduğun sükan.

Dəyişirsiz tərli, siz yəhərnizi,
Hara gəldi, basıb boz kəhərnizi.
Bir kər yada salıb, baxın kecmişə,
Oturub, düşünün bir səhərnizi.

Durmadan hər yana at capırsınız,
Quya ki nəysə bir iş yapırsınız.
Çox böyük təəcüb doğurur məndə,
Boş vaxt çürütməkdə nə tapırsınız?

□□□

## *Kupletlər, rubailər*

Kasadlıqdan bolluğum var,
Yüksəlməyən donluğum var.
Qeyri mə'lum sonluğum var.
Soruşsalar, var-dövlətdən?
Altı dənə onluğum var.

□□□

Bura, ölkə deyil, bir dağılmışdı,
Haraya qedirsən dost-tanışlıqdı.
Görüb bu rəzilliyi, nadanlığı,
Xəqani, Nizami farsca danışdı.

□□□

Cib paraynan dolu olsa,
Nə var onda iş yapmağa.

Kabablığa ət bol olsa,
Nə var onda şiş tapmağa.

□□□

Bixəbər oldun dünyadan,
Xorhaxornan yatdın, millət,
Alıb saxta invalidlik,
İşi- gücü atdın, millət,
Bir ovuc qar yağan kimi,
Tamam itib, batdın, millət.

□□□

Soruşurlar, sən necə yazırsan şeiri:
-"Şərab içirəm qərq oluram qəm suyuna".
-Necə köçürürsən ağ kağıza kədəri?
-Boğulanda baş vururam zəmzəm suyuna".

□□□

## *Söhbət din və yalançı dindarlardan gedir*

*Bu bölməyə daxil olan şeirlər heç də dini və ya əsl din xadimlərini tənqid məqsədi güdmür, əksinə, onlara utanc verən, ali Qurandan xəbərləri belə olmayan, yalançı, riyakar, əlləm qallam, qəbristanlıqda manat pusqusunda duranların iç üzlərinin açılmasına yönəlmişlər*

*Nə olub görəsən*

Oğlan, sən bu qün meydanda, de, nə arıyırsan,
Nə olub, balam, vurub baş gözünü yarırsan.
Öznü demirəm, söylə nədi suçu çocuğun,
O zavallını gətirib qanına bulayırsan!

Fəalsan yaman, ortada meydan sulayırsan!
Əmmaməli fars mollanın əlni yalayırsan.
Bir anlat bizlərə də, nə haqq-hesabdı ki bu,
Tula kimi şırvanırsan, quyruq bulayırsan!

Onun əlni öpməyi fəxr kimi anlayırsan,
Qürurdan mələk görmüş xoruztək banlayırsan.
Onsuz da ki, səni saymayıb, saymayacaq da,
Baxma, hərdən yanında çaqqaltək ulayırsan.

Aşılarsan millətə, din yüksək mədəniyyətdir,
Aləm üçün o bir təməli- mənəviyyətdir.
Dini dərin bilən kəslər çox olub dünyada,
Onların fikrincə, din – boş bir cəfəngiyyətdir.

□□□

*Məsləhət*

Üz tururam bu gün sənə, ay millət,
Avamlıqdan çəkəcəksən çox zillət.
Molla goplar, sən diqqətlə dinlərsən,

Baxma ona, süz konyakı, süz, gillət.

Bax, özünü gör nə günə salmısan,
Boş mənasız xülyalara dalmısan.
Yeni əsr də çatmaqdadır yarıya,
Tərəqqidən sən kənarda qalmısan.

Molla desin, diqqətini saxla tuş,
Dinləginən nə söyləyir o bayquş.
Avamlıq olmaz bu qədər, ay canım,
Tərk eləyib yoxsa səni ağıl, huş?

Hər bir dərdə dava-dərman səbirdi.
Elm dediyin şey artıq bir zülm, cəbirdi,
Qatılma, ondan uzaq qac, ay millət.
Onsuz da, son mənzilimiz qəbirdi.

□□□

*Molla tələb edir*

Şweyçarski saat yanır qolunda,
Cavanca qızlar sağ və solunda,
Belə yaraşıq, ədəb, ərkanla,
Dua edir molla haqq yolunda.

Müraciət edir dindaşlarına,
Dilbir, canıbir qardaşlarına,
İnanın, deyirəm haqq adından,

Andım müqəddəs baş daşlarına:

Girib yuxuma həzrəti Mədət,
Verin nəzir sveji kabablıq ət.
Vaxtında doysa mollanın qarnı,
Tez duşər yerinə sizin ibadət.

Yediyimdə qalmasın gözünüz,
Qarın qartanı yeyin özünüz.
Yarımac, yarıtox olsaz əgər,
Onda tez çatar həqqə sözünüz.

Var aramızda yolu azanlar,
Gecə- gündüz bizə həcv yazanlar,
Belənçilərin əməllərindən,
Molla evində boşdu qazanlar.

Onlar dediynə siz inanmayın,
Çaşıb həqq yolunu yayınmayın.
Gətirin vaxtlı vaxtında zəkat,
Dua edin ölsün, dayanmayın.

Bizimçün məkan – cənnət diləyək,
Onlara haqqdan töhmət diləyək.
Ölüb köçsünlər qoy bu dunyadan,
Biz dua edib, ləhnət diləyək.

□□□

## *Molla psixologiyası*

Bir qəpiklik əgər xeyri gələrsə,
Çoxdan da çox qanlar tökəndi molla,
Görsə çöldə əgər ölmüş eşşəyi,
Dişinnən nalını sökəndi molla.

Qollara qandal, ayağa məngənə,
Xalqı tərəqqiyə qoymayır molla.
Bilmirsən zəlidir, yoxsa ki gənə,
Bu qədər qan içir, doymayır molla.

Manatın xətrinə yüz bir min oyun,
Yüz min hoqqa, hiylə qurandı molla.
Hər yerdə şeytanla durar qol-boyun,
Stəkanlar doldurub, vurandı molla.

Özü, öz dediynə inanan deyil,
Haqdan, doğru sözdən qaçaqdı molla.
Mənəviyyət nədir, anlayan deyil,
Alçaqlar yanında alçaqdı molla.

□□□

## *Özünü tanı*

Nə dindarsan, nə də dindaş
Anlayanlar deyir dindoş.
Pərçimsən farsa, ərəbə,

Ay ağılsız, ay beyni boş.

Sən Tanrı tanıyırsanmı?
Tarixini anırsanmı?
Ya Manası, ya Qorqudu?
De, birini sanırsanmı?

Yaxşi olar yadına sal,
Məshətini, Natavanı.
Yad edirsən bir ərəbin
İyirmi üç arvadını.

Həmin arvadlar üstündə,
Onlar bir-birlərni qırıb.
Bir də var-dövlət qəsdində
Sənə burda, de, nə qalıb?

Hər ilin bir ayını, sən,
Ağlayıb qara geyirsən.
Onlar ölüb min il əvvəl,
Hələ də ağı deyirsən.

Veribsən beynini pasa,
Batırsan ilbəil yasa.
Dünya gedir tərəqqiyə,
Sən umudsan cəddə, tasa.

□□□

*Kimlərdi molla olan*

Gədə-güdə, alçaq-ulçaq
Düşüb bu gün ortalığa,
Başa qoyub türbə papaq,
Qurşanıbdı mollalığa.

Ərəbcə yox, öz dilində,
Bir cümləni yazammırlar.
Amma, xeyir- şər yerində,
Yaxşıca pul qazanırlar.

Manat üstə bir- birini,
Qansızcana budayırlar.
Durub sonra bir sıraya
Bayquş kimi ulayırlar.

Çıxırlar yüz min oyundan,
Bir yas yeri diləyirlər.
Ölünün yuyqu suyundan,
Diri üstünə çiləyirlər.

Yox bunlarda mənəviyyət,
Nə insanlıq, mədəniyyət!
Hamsı alçaq, qarınqulu,
Doymaz nəfis, nə də niyyət.

Gətirməzlər dillərinə,
Ya İlahi sənə şükür!

Belələrnə tərbiyəni,
Niyə vermir Allahşükür!

□□□

*Rubailər, kupletlər*

Həp - gopuna yoxdu yozum,
Budur sənə axır sözüm,
Çatmır nə səbr, nə də dözüm,
Alçaq molla eşitginen,
Yox səni görməyə gözüm.

□□□

Sübh çağından durar molla azana,
Haqqa səmt göstərər yolu azana.
Atam inanmıram, vallah yalandı,
O gəlir özünə para qazana.

□□□

İbadətdən sonra girib xəlvətə
Tutun arağını süzəndi molla.
Gillədib iştahla: gəlsin lənətə-
Deyərək, ağzını büzəndi molla.

□□□

## ***Allah yoluyla***

*Bu şeirlərdə ruhi tarazlıq axtarışında Tanrıya müraciət  s`əyi edilir, ondan yardım umuduyla*

*Allah hər yerdə varlıqdır*

Deyirsiz əl çatmaz, nə də ün yetməz,
Deyirsiz ki, Allah guya göydədir.
Çox çabalamayın, yalannız keçməz,
Allah göydə olmur, Allah yerdədir!
Allah hər cümlədədir, hər şeirdədir.

Tikmisiz cəlallı nəhəng məscidi,
Adını qoymusuz Allahın evi,
Girər-girməz, adam istər tərk edi,
Saf qəlbli kasıbın uçuq daxması,
Allah üçün olur məkani-sevi.

Fəxr edirsiz ki, həccə gedirsiniz,
Kiməsə nəyisə fətv verirsiniz.
Minlərlə suçsuzu günahlandırıb,
Sonra bir neçəsin əff edirsiniz!

Qatılırsız yüz hoqqaya, oyuna,
Günahla Allahı girov etmisiz.
Əlinizi salıb zəm-zəm suyuna,
Murdarlayıb onu ərov etmisiz.

Yozursuz yalana sözünü Allahın,
Bağladız niyə gözünü Allahın.
Baxanda sizlərin əməllərinə,

İstək yox görməyə özünü Allahın.

Baxma ki bağlıdı gözü Allahın,
Fitvaya yozudu sözü Allahın.
Gün gələr, anlayar siz mürtətləri,
Cəzanızı verər özü Allahın.

□□□

## *Hər addım Allah kəramətidir*

Rəngarəng iplərdən düzüb naxışı,
Anamın əlinnən xalça toxuyan,
Cəlb eləyib milyonlarla baxışı
Müslümün səsinnən mahnı oxuyan,
Anlamayır hələ, nə pis, nə yaxşı,
Beşiyində pişiyinnən uyuyan
Məsum körpə Allah deyil, bəs kimdir?

De kim verir rəva belə oyuna,
Xəncər çəkir kimsə, kimin boynuna,
Körpə uşaq salır əlni qoynuna,
Yetim qoyan Allah deyil, bəs kimdir?

Biri deyir: qəbul et, qurbanımı,
O birisi: qurtar yazıq canımı
Bir kəs yox, axtarıram dörd yanımı,
Hər ikisi Allah deyil! Bəs kimdir?

Dünya, səni var anlayan, var naşı,

Çərxi- fələk onlarsız da dolaşı,
Kimsə gülür, kimsə tökür göz yaşı.
Yaş tökdürən Allah deyil, bəs kimdir?

Çox qan axır, dayandıra bilmirəm,
Gecə, gündüz ağlayıram gülmürəm,
Qanlı yaşı gözlərimdən silmirəm.
Göz yaşları Allahın yox, mənimdir!

Çalğısına tüm kainat oynayan,
Bu qədər qan töküb, yenə doymayan,
Bir kimsəni son mənzilsiz qoymayan,
Deyin görüm, Allah deyil, bəs kimdir?

Gözlərinə zil qaranlıq sözülən,
Nahaqq qanı torpağına süzülən,
Baş üzürdü, bu gün başı üzülən,
Bunu edən, Allah deyil, bəs kimdir?

Yazıq o kəs, dünya malna bərk uya,
Son mənzilə köç vaxtını duymuya,
Günahlarnı burda ikən yumuya,
Onda, günah Allahın yox, onundur.

□□□

## *Müraciət*

**Misirdə vurulan təyyauəyə**

Eşidə biləydim, İlahim səni,
Tutduğun işlərdən baş açammıram,
Qərq olur qəzaya gündə bir gəmi,
Kədərdən, qüssədən mən qaçammıram.

Mənim günahlarmı tutub bəhanə,
Zülm edirsən, niyə cümlə cahanə?
Neçə-neçə məsum körpələr yandı,
Bəs onlara niyə olmadın hanə?

Nəydi yazıqların bilməm günahı,
O gün qara açdın neçə sabahı,
Onlar ki, sənə çox yaxındaydılar,
Çatmadımı birnin naləsi, ahı?

Verirsən aləmə sən zillət, cəfa,
Varmı ki, bir kimsə çəkəydi səfa?
Bundan sonra sənin olarmı haqqın,
Gözləyəsən kimdən ibadət, vəfa?

□□□

## *Narazılıq*

Tanrım, bağışlayırsan zalımlara günahlarını,
Yerdə qoyursan çoxların çəkilən ahlarını.

Nə vaxt ki onlara günahlarını bağışlayırsan,
Bununla ağır cinayətlərini alqışlayırsan.

Nə qədər sən onlara çox bağışlaryırsan günahlar,
Ondan daha çox olacaq hayfı yerdə qalan ahlar.
İnsan bir məxluqdur ki, gündən günə o arsızlaşır.
Üzünə xoş baxma, baxdıqca daha çox həyaszlaşır.

Məndə əsla yoxdu qorxu bəlli cinayətkarlardan,
Amma daim xofdayam səninlə bağışlananlardan.
Onlar üzə gülərək arxadan zərbə vuranlardı,
Düşməninlə əlbir olub, fitnə-fəsad quranlardı.

□□□

## *Ata və Anaya ehtiram*

*Bu hissədə atamın və anamın xatirəsinə yazılmış şeirlər təqdim olunurlar*

*Atam və Anam*

Yayın əvvəlindən payızın sonnadək,
Dağları ceyran kimi gəzərdi anam.
Yadıma ki düşürdü yarpaq xəngəli,
Qurudunu axşamnan əzərdi anam.

Rəngarəng iplərini tutub əlinə,
Xalçaya naxışları düzərdi anam.
Gümüşlü kəmərini vurub belinə,
El-obanın toyunda süzərdi anam.

Xəlvət süd qazannın qapağnı açanda,
Qaloşunnan pişiymi döyərdi anam.
Onu qucağıma alıb evdən qaçanda,
Məni də, Məstanı da, söyərdi anam.

Biçənəkdən gələn şirin qoxudan,
Sinə dolusu nəfəs alardı atam.
Oyadaraq quşları şirin yuxudan,
Vərləri bir- birinə calardı atam.

Əyrisu düzləri gözəl idi, gözəl,
Baxdıqca heç ayıra bilmirdin baxış.
Anamın xalçalara düzdüyü kimi,
Atam da biçənəyə vurardı naxış.

Göy atın belində, tüfəngi çiynində,
Atamın gəzdiyi, çox çağlar olubdu.
Düşmənlə üz- üzə döyüşə girəndə,
Onun səngər sipəri dağlar olubdu.

Bu dünyadan atam köç edibdi çoxdan,
Tikdiyi damlardan da tək himi qalıb.
Qayidariq o yurda, demirəm yoxdan,
Göy atın ki dağlarda çəhlimi qalıb.

□□□

*Anaya*

Uzaqdan – uzağa aparır bizi,
Sonu qeyri bəlli tale yolları.
Bir an da itirmir izlərimizi,
Yolboyu uzanır ana qolları.

Bu dünyaya gəldi- qələli gündən
İlk andan dinlənir ana sözləri.
Kədərli, qüssəli gülməli gündən
Həmişə yaşlıdır ana gözləri.

Bayatı çəkərək töküb göz yaşı,
Həsrətlə yolları gözləyib ana.
Nədən xəbər verir tək məzar daşı,
Ayrılıq dərdinə dözməyib ana.

Günəş hər tərəfi oduna şaxsın,
Bala üçün sərin kölgədi ana.
Hazırdı özünü odlara yaxsın,
Ürəyindən bölqə-bölqədi ana.

Sağ ikən eşitmirik, söznü kəsirik,
Gah sağa, gah sola yeltək əsirik.
Ana köcür, bizsə qalırıq tənha,
Payız yarpağıtək tir-tir əsirik.

Hansı kəlamlardı, layiq, münasib,
Anadan nə deyib, nədən yazasan?
Çox zaman heç o da olmayır nəsib!
Çiynində aparıb, qəbrin qazasan!

□□□

## *Vətən düşüncələri*

*Bu bölümdə təqdim olunan rubailərin, kupletlərin və şeirlərin məzmunu, adı ilə ifadə edilmlşlər – vətən həsrətli düşüncəlr...*

*20 yanvar*

İyirmi yanvar, qanlı gecə,
Verir xalqa ruhi işgəncə!

20 yanvar, 20 yanvar!
Azərbaycan tarixində,
Qanla yazlan səhvən var!
İnanmaram o gecəni,
Unudan kimsə tapılar!
O şaxtalı uzun gecə,
Ruha verir zülm, işgəncə!
O qanlı gecədən baş alar,
Azadlığa keçən yollar!
Səndən qaldı nəsillərə,
Qanla dolu bir yadigar!
Sən xalqın yaddaş dağısan!
Qana susamış 20-ci əsrin,
Qandandoymaz qonağısan!
Unutmaram o səhəri,
Qəzəblə dolu baxışlar,
Heç kim boğammır qəhəri!
De! O qanı kim bağışlar?

20 yanvar, 20 yanvar!
Atalardan bir deyim var,
Hər dərdə dərman tapılar!
Amma sən vurduğun yaralar,

İnam yox ki, sağalalar!
Şər qüvvələr toplandılar,
Təklənmiş ölkəyə qarşı!
Anaların ağlar baxışı,
Yetim qalan körpələrin,
Həyəcanlı boylanışı!
Hamı bilir: səndən başladı-
Xalqın böyük oyanışı!
Talanmış bir məmləkətin-
Gələcəyə şux baxışı!
İsmləri dandırılan xalqların,
Soy kökünə qayıdışı!
Yandırdı inam şamını,
Ulu rəhbərin çağırışı!

20 yanvar, 20 yanvar!
Səndən qalan ən`ənə var,
Milyonların hər il bu gün,
Xiyabana gur axışı!
Öz- özlərinə hesabatı
Vicdaniyla durub qarşı!
Xanım qızlar, bəy oglanlar,
Gözlərni belə qırpmadan,
Ölümün üzünə boylandılar!
İmperiya başında duranlar,
Sənə çox əmin oldular,
Ki xalqın ruhunu qırarlar!

Amma çox-çox yanıldılar!
Acizlikdən ilan kimi,
Qıvrım-qıvrım qıvrıldılar!
Qollardakı qara zəncirlər,
Qırım- qırım qırıldılar!
Xalqları ayırıb parçalayar,
Dəmir-beton qala divarlar,
Darma-dağın dağıldılar!

20 yanvar, səninlə oyandı,
Əsarətdən qurtuluş əzmi!
Çiçəklərin ən əzizi-
Qərənfil oldu qüssə-kədər,
Xarı bülbül -  zəfər rəmzi!

□□□

*Vətənim*

Bax, bölüblər kəsik- kəsik,
Vətənim Azərbaycanı.
Deynən boğa bilərsənmi?
Səni boğan həyəcanı!
Rusiya və İran yolunda,
Töküldü xalqımın qanı
Gözüyaşlı tərk elədi,
Şəhriyar da bu dünyanı.
Torpağmın qara qanını-
Neftimi heyhat içdilər

Həm o tayda, həm bu tayda
Baş qaldıran igidləri
Çəmən otu tək bicdilər.
Yenə də qalmışam möhtac,
“Qospodlara”, ağalara.
Bölük- bölük vətənimi
Pay verdilər dığalara.
Nədi bu xalqın günahı,
Göylərə dirəkdi ahı.
Körpələri gözündə yaş,
Qarşılayır hər sabahı.

□□□

## *Azərbaycanım*

Sənsən ata yurdu, sən Azərbaycan,
Hazırıq yolunda biz verməyə can.
Nəsib olsa bizə belə səadət,
Üstümüzə bayraq sər, Azərbaycan.

Sənin yolunda qurban vermək üçün
Hələki canımız var, Azərbaycan.
Dağda çiçəkləri suvarmaq üçün
Damarda qanımız var, Azəbaycan.

□□□

## *Muğam*

Dinlədikcə elə hey dinləyirsən,
Ürəyi kökündən üzəndi muğam.

Qəlbin tellərini söküb birə-bir,
Kağızda sətirə düzəndi muğam.

Seyr etdirir sənə bütün dünyanı
Xəyal dəryasında üzəndi muğam.

Yasda ağısından hamı ağlayır,
Toyda qartal kimi süzəndi muğam.

Təlatümlü səsnən oxunan zaman,
Ruh üçün bir arzu, diləkdi muğam.

Təkcə ruhu yox, gözü də oxşayır,
Güllərdən toxunan çələngdi muğam.

Muğam parçalanmış elin naləsi,
Arazın Samurun qan şəlaləsi.

Muğamdan nə qədər yazsan da azdır
Muğam ömür üçün gül açan yazdır.

□□□

*Keçmişə baxış*

Qayıda biləydim yenə keçmişə,
Yaşadığım həmin çağlar olaydı.
Baxmaq istəyəndə doğan günəşə,
Gördüyüm həmin, o dağlar olaydı.

Uşaqlıq illəri kənddə yaşardım,
Dağları, düzləri hey dolaşardim.
Gündüz də meşəyə girəndə belə,
Geriyə dönəndə yolu çaşardım.

Mövcuddu dünyanı xəlq edən varlıq,
Səni qorxutmasın düşən qaranlıq.
Həyat özü qaynar bir bulaqdır ki,
Bəzən duru olur, bəzən bulanlıq.

O vaxtlar gen dünya darıydı mənə,
Kimsəyə söz demək arıydı mənə.
Eşqin dəryasına qərq oldu gəmim,
İşvəli bir gözəl yarıydı mənə.

Yaz gələndə, çaylar coşaraq qalxır,
Kim var- dövlət tutur, kimiysə baxır.
Bilməkmi istərsən mənim fikrimi,
Dağdan əriyən qar onsuz da axır.

İnsan bu dünyada köcəri bir quş,

O qəlir lüt- üryan, və qedir bihuş.
Nə qoyub gedirsən, nə aparırsan?
Sualın cavabnı özündən soruş.

Həyatdan nə qədər sən alsan da kam,
Deyəcəksən, əfsus: gedirəm nakam!
Çagrılmamış qonaq qələcək bir gün,
İstər min qala qur, min- min istehkam.

Su verin bu gün quruyan bağlara,
Ağaclar can alıb, güman, canlaşa.
Yandırıb külümü səpin dağlara,
Bəlkə dünya biraz mehribanlaşa!

□□□

## *Dağlar*

Dağlar sizdən enən gündən,
Bir daha yüksələmmirəm,
Ağlayıram günbəgündən,
Bir kər olsun güləmmirəm.

Sizdən çox-çox uzaqlaşdım,
Ölüm dedim, öləmmədim.
Dərd, həsrətnən qucaqlaşdım,
Heç bir kəsnən böləmmədim.

Bulaqlartək dupdurudu,
Gözlərimdən axan yaşım,
Deyirlər bağlar qurudu.
Dərddən dümağ oldu başım.

Dağlar sizin qayalarda,
Quşlar yuva qurur yenə?
Dolamalı cığırlarda
Qalan izim durur yenə?

Cantəpə və Soyuqbulaq,
Asın mənə bir an qulaq.
Qupqurudu qaş altında,
Ağlamaqdan bir cüt bulaq.

Biz nə qədər əzizmişik,
Ayrı düşüb, - əzikmişik.
Çastuşkadan, dasnıçorsdan,
Hər ikimiz bezikmişik.

Daglar, yollar çınqıl, daşdı!
Haqq yolunu nədən çaşdı?
Ağlayırıq ayrı düşüb,
Gözdən axan qanlı yaşdı.

Üz tuturam sizə dağlar,
Qəlb dərdini bilən yoxdu.
Rüstəm daim- durmaz ağlar,

Göz yaşını silən yoxdu.

□□□

*Hanı?*

Dolanıram bihuş kimi,
Bilməm sağım, solum hanı.
Qatardan düşən quş kimi,
Vurnuxuram yolum hanı?

Dağ ətəyni məkan edən,
Güzgü tək göllərim hanı?
Ucu sonsuzluğa gedən
Gem-geniş çöllərim hanı?

Zirvəsi qartal yuvalı,
O uca dağlarım hanı?
Xoş ətirli, xoş havalı
Meyvəli bağlarım hanı?

Ata, babanın məzarı
Belə çox ağlarım hanı?
Xatirələr ahı- zarı
Cavanlıq çağlarım hanı?

Dağlar döşünə sarılan
Qıvrımlı yollarım hanı?
Quşlarcün məclis qurulan

Göyəmli kollarım hanı?

□□□

## *Xəzərlə söhbət*

Xəzər, sənə salamımı,
İtil çayı gətirirmi?
Qəlbdən gələn kəlamımı,
Yoxsa yolda itirirmi?

Axan suya çox baxıram,
Sənsiz yaman darıxıram,
Dalğalarnı qörməm deyə
Özüm su olub axıram.

Kaş ki, elə su olaydım,
Uzaq yollar dolanaydım,
Sən olaydın, mənə yataq,
Axıb qoynuna dolaydım.

Hey baxıram göydə aya,
Ulduzlar qəlməyir saya.
Kaş olaydım sahilində,
Sarsılmaz bir qara qaya.

Gecə- gündüz dalğaların
Mənimlə hey çarpışaydı.

Ay və ulduzlar diliylə
Qəlbim sənlə danışaydı.

□□□

*Araz*

Min- min qəncin və gözəlin
Nisgilliyi oldu Araz.
Şəhriyarın, Bəxtiyarın,
Vurğunun və Süleymanın
Son baxarı oldu Araz.
Həm o taylı, həm bu taylı,
İki gözdən axan yaşın,
Bir axarı oldu Araz.
Fətəliyə və Zakirə,
O, doğmaca qardaş oldu,
Vətən oğlu ər Nəbiyə,
Yaxın bir dost, sirdaş oldu.
Dalğalarının qoynunda,
Gah o taya, gah bu taya,
Onu daim aparardı,
Düşmənlərdən qurtarardı.

□□□

*Müqayisələr*

Göyçə gölü göz yaşımdı.
Murğuz ağaran başımdı.

Əyrisu qırış qaşımdı.
Sənsiz ötən illər vətən,
Ömür deyil, ilyaşımdı.

Cantəpəydi səfadarım.
Yağlıdərə havadarım.
Kimsəyə yox etibarım.
Qara qələm yaxın dostum,
Ağ kağızdı vəfadarım!

□□□

*Dağlarla söhbət*

Daglar, illərdi sizi tərk etdiymi,
Deyin: qayalarınız bildilərmi?
Cığırlardakı qalmış izlərimi
Deyin: küləkləriniz sildilərmi?

Kimlər düçar etdi həsrətə bizi
Gecələr yuxuda görurəm sizi.
Sizmi uzaqsınız, qollarmı bağlı?
Qucaqlayammıram zirvələrnizi.

Unuda bilmirəm düzlərinizi
Qarışıb otlayan sürülərnizi.
Ayaqlarmı bağlı, yoxsa yollarmı?
Niyə qəzəmmirəm ətəklərnizi?

□□□

*Şuşa*

Ağappaq gəlin örpəyinə bənzər,
Ağ duman dağların əynini bəzər.
Yaddaşda canlanan bu xatirələr
Ağır bir daş olub qəlbimi əzər.

Şuşa! Qarabağın sənsən baş tacı,
Bütün məmləkətin ruh ehtiyacı.
Göndərdilər o vaxt ki, sənə başçı,
Bişərəf alçağı ac-yalavacı.
Ayaq altda qoydu namus qeyrəti,
Məhv oldu tüm xalqın əzmi, amacı!

□□□

***Əsgərin ölümünə***

Ata yurdum Azərbaycan,
Bir de görək nə vaxtacan,
Balalarnı öz əlinlə,
Öldürəcək, boğacaqsan?

Sənə düşmən lazım deyil,
Özün-özüne duşmənsən!
Ölən yoxsa balan deyil?
Bəlkə bir az düşünəsən!

Payınla böldün milləti,

Ozüdə cox “ədalətlə”,
Bir qisminə, var – dövləti,
Digərinə – zülm, zilləti.

Bir neçəsinə oldun ana,
Bərk-bərk basdın öz bağrına.
Digərinə ögey olub,
Qandal vurdun qollarına.

Övlad saydın bax kimləri,
Sinənə dağ çəkənləri
Girib insan libasına,
Vicdanı yox edənləri.

□□□

*Rəhbərlərə müraciət*

Ay prezident, ay nazir!
Verin hücum əmrini.
Sizlərdən varmı bilən
El-obanın dərdini!

Çoxmu sınayacaqsiz?
Siz bu xalqin səbrini!
Düşmənlər ayaqlayır
Ata baba qəbrini!

Təbilçilər vursunlar

Döyüş marşı cəngini!
Meydana çagırsınlar,
Yoxsulu həm zəngini.

□□□

## *Rubailər, kupletlər*

Şəkilə baxdıqca qəlbim qan ağlar,
Dönüb xarabaya bağçalar, bağlar.
Ürək yarasının dərindir kökü,
Gümanım yoxdur ki, bir gün sağalar.

□□□

Mən qurban olaram bizim ellərə,
O uca dağlara, geniş çöllərə .
İstəmirəm qalım yad torpağında,
Yandırın, külümü verin yellərə.

□□□

Qayıdarmı birdə o gözəl çağlar?
O vaxtdan kimsəsiz qalıbdı dağlar.
Quruyubmu bilməm çeşmə bulaqlar?
Durnalar, barı siz bir xəbər verin!
Yanıbmı, solubmu bağçalar, bağlar?

□□□

## *Həyat düşüncələri*

*Ey sərbəst düşüncələr,*
*Çoxdu belə deyənlər!*
*Əgər siz olmasanız,*
*Beyin biraz dincələr.*

*Razılaşa bilmərəm,*
*Bu mənasız fikirlə.*
*Əgər siz gəlməsəniz,*
*O həmin anda ölər.*

*Hörmətli dostlar, əziz Çaykend məktəbinin 70-ci il mə`zunları!*
*İlk olaraq, icaze verin hamımızı ölkəmiz üçün en müqəddəs olan müstəqillik bayramımız münasibətiylə təbrik edim, birlikdə ölkəmize, xaiqımıza xoşbəxtlik arzulayaq. 70 reqemi bizi iki terefden müşayət etmekdedir. 70- ci ilin mə`zunu olmaqla, yzşımız da 70 –in dövrəsindədir. Kimlerse onu az da olsa arxada qoymuş, kimlerse onu haqlamaqdadır. Ürek ağrısıynan onu da demeliyem ki, 70 ilyaşına çatmayanlarımız, hetta cavanken dünyanı terk edenlerimiz de var. Onlara Allahdan rehmet dileyek, mekanları işıqlı olsun. hemçinin isterdim ki, hörmətli müəllimlerimizi de xatırlayaq. Adlarını indi çəkmirəm, ondan deyil ki, kimise unutmuşam, yox, onlar, 1-ci sinifden başlamış buraxılışa qədər, hamısı xatirimdedirlər. Sadece olaraq, kimin rehmete getmiş olduğunu, kimin ise həyatda olduğunu dəqiq bilmirem. Odur ki, deyirem: dünyasını dəyişənlərə rəhmət, yaşayanlara isə Allah can sağlığı versin.*
*İndi ise icaze verin diqqətinize texminen 4 – 5 il önce yazmış olduğum "DEYİLEM" adlı bir şeirimi teqdim edim.*

*Deyiləm*

Qocalıq, Vallah sən yolu azıbsan,
Sənə yol yoldaşı olan deyiləm.
Məni siyahına nahaq yazıbsan,
Payız yarpağıtək solan deyiləm.

Sözümə sahibəm, yalan deyiləm,
Araya söz – söhbət salan deyiləm.
Yerində deyirəm mən öz sözümü,
Xəzəltək tapdaqda qalan deyiləm.

Mərdliyi, ilqarı atan deyiləm,
Haqlını haqsıza satan deyiləm.
Məftunam həmişə şux gözəllərə,
Hər yol keçən ilə yatan deyiləm.

Hec vaxt deməerəm ki, yatıbdı baxtım
Söhbəti uzadıb sözləyən deyləm.
Nə vaxt anlasam ki, çatıbdı vaxtım,
Oturub qasidi gözləyən deyləm.

Qalxıb duman kimi yüksəkliklərə,
Damlatək dəryalrda yox olaram mən.
Bölünüb xır-xırda zərrəciklərə,
Milyondan da belə çox olaram mən.

Bax, şahlardan qalan bizə yadigar,
Saraylar dönmüş xarabalıqlara,
Sən ol söz ustası, ol bir cadugar,
İşıq sal qəlblərdə qaranlıqlara.

□□□

*Dərdini çək*

Dostum, söylə nə qədər şeir yazmısan?

Şeirlərində haqqın yolnu azmısan!
Qoymazlar ki, öləsən öz əcəlinlə,
Sətirlərdə ozünə məzar qazmisan.

Məgər yoxdurmu dərdin gedib çəkməyə?
Bir qarış torpağın yox, durub əkməyə?
Həsr etmisən ömrünü mənasız işə,
Qurşanmısan xalqın təsibni çəkməyə.

Olmayıb heç kəs sahibi əbədiyyət,
Yoxdumu səndə məqsəd, kiçik bir niyyət?
Sən də xalq kimi qaz vur, qoy qazan dolsun,
Yersiz anlamlardır – təhsil, mədəniyyət.

□□□

## *Türklər demişkən: Dünya söylə*

Nereden gəlib də, getdin nərəyə,
Kəndinə bir yol da verdin hərəyə.
Qaldırdın kimləri uca göylərə,
Kimlərisə gömdün dərin dərəyə.

Anlayamam iştə, sənin yapını,
Çıxartdın hər şeyin tam da sapını.
Məgər bir kəsə ki yoxsa hörmətin,
Keç yandan, dinləmə, qapat gapını.

Məndən istədiyin nədir, söylə, nə,
Aşiqəm işığa sanki pərvanə.

Sözün dogrusunu deyəndə, niyə
Mənə sən ad verdin: dəli-divanə?

□□□

*Tale yazısını anlamaq olmaz*

Bu dünya bir burulğandı,
Çox yalanlar doğrulandı.
Heç nəyim qalmayıb, bu qün
Göydən Tanrım oğurlandı.

Tale yazısını anlamaq olmaz,
Axan çox çayları quruyan gördüm.
Deməki boş olan sabaha dolmaz,
Bulanlıq suları duruyan gördüm.

İlanlar mələşən susuz çöllərdə,
Vaxt qəlir, bağ- bağat abadlıq olur.
Yaşılbaş sonalar üzən göllərdə,
Qurbağalar üçün bataqlıq olur.

□□□

*Hər şey dəyişir*

Nə vaxt haqsızlığa sən dinəmmirsən,
Xiffətdən damarda qan laxtalaşır.
Kimsəyə inanıb, ya güvəmmirsən,
Dostluq, səmimiyyət tez saxtalaşır.

Xoş keçsə də hava nə qədər belə,
Vaxt qəlir ki bir qün şaxtalıq olur.

Çalışır, carpışır, qazanır insan,
Qazancı on kəsik taxtalıq olur.

Что за доски, вовсе неважно,
Дуб, орех, иль простая сосна
Лежащему там безмятежно,
Не улыбнется новая весна!

Çox əzaba, zülmə düçardı insan,
Elə bil ki, çiynində bir dağ aparır.
Günbatana yolu tutanda karvan,
Bürünüb beş ərşin, o ağ aparır.

Çoxlarnı bürüyür var-dövlət, şöhrət,
Dünya malınnan heç doymayır gözü.
Tanrı, Rüstəm səndən heç nə istəmir,
Qalıb deyilməmiş bir neçə sözü.

□□□

## *Bəlkə də olar*

Dayaz cümlələrlə dərin fikirlər,
İfadə eləmək bəlkə də olar!
Otlardan düşən şeh damlalarından
Su qabı nə vaxtsa, bəlkə də dolar.

Cavanlıq çağları bir qızıl güldür,
Vaxt gələr ki, o da kökündən solar.

Ömür istəmirəm İlahi səndən,
Sözümü deyim, möhlət ver, noolar!

Deməyə söz yoxdu sənə, ay fələk,
Sən də gəldin mənə yamanca kələk.
Necə ötdü günlər, qeyb oldu illər?
Yada gəlir ancaq çisgin, qar, külək!

□□□

## *Deyil*

İstəyirsən gümüşdən vur,
Axsaq at nal tutan deyil.
Əziyyət çəkib çalışma,
Ac arı bal tutan deyil.

Qolun üstə heç gəzdirmə,
Qarğa şikar vuran deyil.
Alçağ önündə əzilmə,
Sözü üstə duran deyil.

Bel bağlama pis övlada,
Mütləq əl açacaq yada.
Axsaq atı minməkdənsə,
Ya öl, ya da, qal piyada.

□□□

*Xalqının balası ol*

Nə var keçmişi andıran
Səni sənə tanıtdıran.
Indiyədək çox olubdu
Tarixi xalqa dandıran.

Qayıt gəl özün-özünə
Hara gedirsən düzünə
Danışanda bir fikir ver
Dilindən düşən sözünə.

Öz xalqının balası ol,
Daim onnan qalası ol.
Ağ gündə asandı sevmək,
Dar gündə qəm çalası ol.

□□□

*Niyə*

Mən baxdıqca bu duruma,
Xiffətimnən təpəm atır.
Olsun lə`nət bu quruma,
Bilməm millət niyə yatır.

Gündə nəsə bir şey atır,
Televizor da baş qatır.
Baş rəhbər çox harınlaşıb,
Görən millət niyə yatır.

Bu məvacib nəyə çatır?
Kişi araqnan baş qatır.
Arvad ev- eşiyni atır,
Bəs bu millət niyə yatır?

Gecə- gündüz çapalayır,
Alın tərni qanna qatır,
Yaş tökür, qannı yalayır,
Millət elə yenə yatır.

Ana öz balasın atır,
Qız nəfəsni pula satır.
Ar - namusu yerə atır,
Millətsə ayılmır, yatır!

*İllərə*

İllər, sizdə aman varmı?
Deyərdim ki, heç də yoxmuş...
Apardınız cavanlığmı,
Guya ömrüm bir az çoxmuş...
Güman etdim qaytarasız,

O xəyalım da gördüm boşmuş...

□□□

## *İllər*

Yada qəlmir cəfalı illər,
Unudulur səfalı illər,
Gəldiyin və bir də köçdüyün-
Bunlardır ən vəfalı illər.

İllər nə çaparaq gedir,
Ömürdən qoparaq gedir,
Baxın, bu kimin köçüdür,
Olduqca təm- təraq gedir.

İllər var ki səfalıdır,
İllər var ki cəfalıdır,
İkicə il var həyatda,
Hansılar ki vəfalıdır.

Sən illərə bel bağlama,
Ürəyini heç dağlama,
Çox dostları yola saldın,
Özün köçəndə ağlama.

□□□

## *Rubailər, kupletlər*

Dünya dönübdü bazara, hər şeyi alıb, satırlar,

Yoxa çıxıb mənəviyyət, qaraynan ağı qatırlar.
Sözə qiymət verən yoxdu, ağıza gələn deyilir,
Qotur yavı, axsaq eşşək, kəhərə təpik atırlar.

□□□

Məgər bir kökdən olan xalq deyilikmi?
Niyə kəlmə kəsib danışa bilmirik,
Biz nə vaxt küsdük ki, barışa bilmirik?
Əsrlərcə vuruşmuşuq öz-özümüzlə,
Nədəndir qaynayıb qarışa bilmirik!

□□□

Qartal qalxır qöyə, ovu quş olur,
Vaxt qəlir, ovcu da, oxa tuş olur.
Haram balı yemə, dönür zəkkuma,
Halal çörəknən su, cana nuş olur.

□□□

Bir qismi atlıdır, çoxu piyada,
Dolub qəm kasası həddən ziyada.
Sən necə baxırsan, söylə, ay dünya,
Kimsə ki salmayır, kimsəni yada.

□□□

Haqq qapısı həmişə açıqdır,
Çox işlərin ala yarımçıqdır,
Deyilməmiş sözün varsa hələ,
Demək, sənsiz dünya yarımçıqdır.

□□□

*(Dostumun sosial şəbəkədəki şəklinə)*

Əriyir dağların başının qarı,
Karvan köç eləyir mənzilə sarı.
İllərin mirası, eşqin nübarı,
Sadiq rəfiqəmdir bu qoca qarı.

□□□

Çəməndə çiçəklər açar,
Ətrini dörd yana saçar.
Dostunu dar gündə sına,
Namərd həmən saat qaçar.

□□□

*(Dostum Sabirə cavab)*

Məqər ölüm ilə iş düzələcək?
Ölüm bir qadındır, həm də fahişə,
Onu heç tələsdirmə mütlək gələcək,
Çatlaq, özü axtarıb tapır həmişə.

□□□

Olsada nə qədər yüksək səndə məvacib,
Baxma, qarın ac və daim boş olacaq cib.
Alar olsan əgər, lap azca belə rüşvət,
Yeyəcəksən yağlı kökə, qızardılmış ət.

□□□

Deyir, fələstinlərin niyə yoxdu dövləti,
Deyirəm günah hamsı Yasər Arafatdadır.

Düz sözü deməyin qalıbdı tək bircə yolu,
O da, ya lağ-lağıda, ya da zarafatdadır.

□□□

*(dostlara, qohumlara məktub)*

Yaşa dolub qocaldıqca,
Yoxdu bircə kəsim, qardaş.
Çox demirəm, ayda bir kər,
Gələydi kaş səsin, qardaş.

□□□

Hirsdən əlimdə titrəyir qələm,
Alıbdı qoynuna tüm xalqı ələm.
Nəfəs almağa tuturlar sələm,
Yoxdur ki ətrafda kimsə belə,
Sozümu deyib, dərdimi böləm.

□□□

Deyirlər göydən enibdi, haqqdandı yazı,
Dəryanın dərini az, çox imiş dayazı.
Nə qədər qözlədim, gələr talenin yazı,
Saya aldım qözləmədə ötən illəri,
Baxdım, kəsib qapını ömürün payızı.

□□□

## *İthaflar*

*Bu bölümə daxil olan şeirlər müəyyən, ünvanı bəlli olan yazılardı*

*Portretə cizgilər*

Bizim elin balası,
Qanına bulanası.
Məşhurdu el, obada,
Əsli, nəsli, tayfası.
O deyir, inanmiram,
Quya düşür yadına
Atası, həm anası.
Əlindən bir iş qəlmir,
Oxuyub, yazmaqdadır.
Bunun nəticəsində
Ağıldan azmaqdadır.
Beləsinə deyirlər
Yox üçdə alacağı,
Ya beşdə verəcəyi.
Keçmiş olub darbadar,
Heç nədi gələcəyi.
Nə pulu var, nə varı,
Başqasını demirəm,
Heç özünə yox karı.
Allah nəyə yaradıb
Bu sarsağı, bikarı.
Ona atmaq çox asan,
Sadəlövhün birisidir
Ölülər arasında
Yəqin tək dirisidir.
Həyatın gedişini

Ona anlatmaq olmur.
Elə çapır öz atını
Beyninə söz də dolmur.
Heç nəyə qoymur məhəl,
Öz- özündən razıdır.
Bir bax nə deyir əfəl?
“Haqq göndərən yazıdır
Dünyada baş verənlər.”
Nə ola danışanda
Durub qulaq asasan,
Həmdə ki tərtibinə
Yaxından bir baxasan.
İstəyərsən o saat,
Yerindəcə qülləni
Təpəsinə çaxasan.
Adamı lap hirs boğur,
Özündən danışanda.
Deyir mən də bir ərəm-
Ərənlər soruşanda.
Çoxuna dost olmuşam,
Səhradakı ağactək
Hələki solmamışam,
Bilin, mən Qara Nərəm,
Axsaq at olmamışam.
(Məssəb, ya din tanımır)
Tutaydı onu vərəm,
Deyir, yan keçin məndən,

Mən Kefli İsgəndərəm.
Səhradakı bir nərəm!

□□□

## *Kəndimizin çobanlarına*

*(dostum Alaxançal Sabirə məktub)*

Atandan yazıram bu sətirləri,
İstərdim xətrinə dəyməsin sənin.
Keçmişin mirası – nisgillik hissi,
Qamətini bu gün əyməsin sənin.

Düşürdü camaat candan canlıqdan,
Boz ay girməmişdən çöl başlayardı.
Söhbət açım sizə, mən çobanlıqdan,
Payız çıxmamışdan, döl başlayardı.

Baxmayaraq saya gəlməz sürüyə,
Kilki konservası yeyərdi çodan.
Topuğundan kəsib rezin çəkməni,
(təkər kamerindən tikib çarığı)
Ayaqqabı deyə geyərdi çoban.

Aylarla ev- eşik görməzdi çoban,
Dərdini kimsəylə bölməzdi çoban,
Onun əziyyətnə fil də dözməzdi,
Amma yaşayırdı, ölməzdi çoban.

Yaybaşı yaylaxda, qışda aranda,

Arxacı qala tək qurardı çoban.
Bircə quzuyu da verməzdi bada,
Sürünün başında durardı çoban.

Yurduna hörmətli qonax gələndə,
Cəmdəyi ağacdan asardı çoban.
Həmşə canavarı üstəliyəndə,
Boynağı bağrına basardı çoban.

Söykənib çomağa qayanın üstə,
Yapıncı çiynində durardı çoban.
Şirin arzulardan tütək səsiylə,
Göylərə mərdivan vurardı çoban.

□□□

## *Xatirələr mənzərəsi*

Buludlar qapqara, göy üzü çadralı,
Görünməzdi günəşin al yanaqları.
Külək də əsmir, dalıb möhkəm uyquya,
Ay da yandıra bilmir, çilçıraqları.

Hamıyı tamam yormuş bu çən, bu çisgin,
Qaş qabaqlar tökülü, baxışlar misgin.
Ağaclar yarpaqlardan tökür göz yaşı,
Kol altından boylanır bənöyşə küsgün.

Vurmayırlar meşədə quşlar cəh-cəhə,
Atlar çapılmır ki, düşələr ləh-ləhə.

Köçmüşlər bulaq üstən sanki gözəllər.
Gəlmir mahnı səsi, ya gülüş, qəh-qəhə.

Yaşdı, yeriмək olmur kürdü çarıxda,
Sürü də ki, say vermir bu qaranlıxda,
Hirslənirlər bir-birnin üstə çobanlar,
Qurtarıb kerosin də qara çıraxda.

(Əl ayaq yığışır, ara sakitləşir)
Yığışırlar çadıra ocaq başına,
Baxırlar hörmətlə bir-birnin üzünə.
Söykəyərək çörəyi qazan daşına
İsidib dürmək bükür hər kəs özünə.

Təmbəki alıb hərə öz kisəsindən,
Büküb qəzet kəsiynə tüsdüləndirir.
Alvıznan Qaratatın tütək səsindən,
Nənələr uşaqları mürgüləndirir.

Gəzir sürüləri, baş çoban Qənsəfər,
(Eldə sayğıyla ona dədə deyirlər)
Baş çəkir arxaclara o birər-birər,
Dərə kəndlərdə onun hörməti çoxdur
O tək çobanlıq bilən bir kimsə yoxdur.

Dinləyirlər diqqətnən onu çobanlar,
Deyir: biz tərəflərdə bir yalquzaq var,
Boynağ və üç yaxşı it qalsınlar açıq,

Sürüyə gecə ikən basqın da olar.

-Dədə, yalquzaq Boynağa bata bilər?
Çobanlar ona belə cavab verirlər.
-“Yox, Bayram, ehtiyatı siz möhkəm tutun,
Qoşulub o gecə sürüynən də gələr.

İsanı, Şirini, Çopuru da, gördüm,
(Neyməoğlu və Xan da buralardadır)
Onlara belə bir tapşırıq da verdim,
(Başqa ovçulara da xəbər versinlər)
Gecələr hərdən-hərdən tüfəng atsınlar,
Yalquzağı qorxudub, uzaqlatsınlar”.

Bunu deyib, bayıra çıxır Qənsəfər,
Gözlərində işıq, ürəyində təpər.
(Yolboyu öz-zünə belə düşünür)
Arxacların hamsını gəzmək gərəkdir,
Çobanlıq çox ağırdı, dözmək gərəkdir.

Duracaqmı kim isə sahib çomağa
Cavanlar meyl edir hamsı oxumağa.
Bu gedişin sonu bilməm nə olacaq,
Belə getsə bu dağlar tam boşalacaq.

O gündən ki yol tutdu o çobanlığı,
Az görməyib çən-çisgin və dumanlığı.
Deyir: həyat dediyin böyük bir çaydır,

Olur duru axarı, və bulanlığı.

Çox ömürləri dövran çəkdi qılınca,
Ağlar qaldıq el-obadan ayrılınca.
Rüstəm, gecikdin, altmışdan çox il keçdi,
Mənzərələri sən qələmə alınca.

□□□

*Leyla xanıma*

Ey gül, əlni əlimdən üzüb, de, niyə getdin?
Məni küskün baxişla süzüb, de, niyə getdin?
Qəsdənmi tarimar edib könül sarayımı,
Daşlarını qalaxnan düzüb, de, niyə getdin?

Vurğunuyam ağ buxaqdaki o qara xalın,
Xəyalda gedirəm ardınca xoş bir amalın.
Nəsib olaydı ki, duraydım yarnan üzbəüz,
Baxaydım daim gözlərinə o mahcamalın.

Ey sənəm, kaşki sevgili cananım olaydın,
Can deyib, can eşidib, canyananım olaydın.
Baxanda göz- gözə anlayaydıq qəlbimizi,
Kəlmə deməmiş, cümlə anlayanım olaydın.

Sevgi bağında yeganə gülüm sən olaydın
Həzin-həzin oxuyan bülbülüm sən olaydın.
Dinlərdim həvəslə nəğməsini sevgilimin,

Payıza dənə dolan sümbülüm sən olaydın.

Saf amala çağıran pak vicdanım olaydın,
Həyatıma zəmanət, axan qanım olaydın.
Hazıram baş əyib, diz çökəm həbəş qul kimi,
Ondaki sən başım üstə xaqanım olaydın.

Mələk kimi izimi izləyən, sən olaydın,
Uzaqdan yolumu gözləyən də sən olaydın.
Nədən ki olmayıb Tanrıdan taleyə yazı,
Körpəmi uyudub, əzizləyən sən olaydın.

□□□

### *Tərifnamə*

*(ən sevimli içgiyə)*

Canım konyak, gözüm konyak,
Cümlədə baş sözüm konyak,
Gəlirsən, tez tükənirsən,
Dərdə necə dözüm, konyak.

Hər yanda var adın, konyak,
Damaxda var dadın, konyak
Bir az səndən vuran kimi
Məst olur hər qadın, konyak.

Sənə pivə qatmaq olmaz,
Arax kimi atmaq olmaz,
Deyirlər tərgidim səni,
Yaxın dostu satmaq olmaz.

Bəzəksən hər bir süfrəyə,
Səndən ziyan yox böyrəyə.
Vurammadım dünən bir az,
Qaldım köyrəyə-köyrəyə.

Qoxuyursan nanə kimi,
Müqəddəssən səma kimi,
Qəbul elə bu yazımı,
Kiçik tərifnamə kimi!

Sənnən başa ağıl gəlir,
Dil-dodağa nağıl gəlir,
Almağa ki yoxdu imkan,
Bu dərd mənə ağır gəlir.

□□□

*Xatirələr*

Qalaydı ağlara o yaşayışı,
Qırırdı belmizi kasıblıq daşı.
Elə bil camaat batmışdı yasa,
Açılmırdı birnin qabağı qaşı.

Görmürdülər lütü, ayaqyalını,
Kimsə soruşmazdı kimin halını.
Olmayanda evdə quru çörək də,
Cocuqlar içirdi itin yalını.

Əksiklik çoxuydu, gendən baxanda,

Bunun neçəsinə olaydı tavın?
Götürüb abtava çölə çıxanda,
Əl yumağa belə yoxuydu savın.

Beş-on çaqqı qoyun, bir axsaq dana,
Bu idi hər kəsin dövləti, varı.
Yığmazdı bu qədər boğaza, cana,
Otarmağa örüş olsaydı barı.

Dolanırdı hamı şornan, fətirnən,
Kərənti millətin nəfəsni kəsdi.
Söylədim fikrimi bu sətirlərimnən
Anlayanlar üçün onlar da bəsdi.

□□□

*Məktəb illəri*

Gözüm işığıyla qaranlıq damda,
Gecələr çox kitab vərəqləyirdim.
Həqiqətdən uzaq şeirlərin də,
Çoxunu məcburən əzbərləyərdim.

Həmin o işıqda, həmin o damda,
Beynimdə bir şüur ağacı əkdim.
Ürəyimdən axan qara qanımnan,
Onu suvarmağa arxlar da çəkdim.

Nə qədər o ağac böyüməkdəydi,
Yolumda həddən çox bağbanlar durdu.

Yəqin bir iz qoymaq istəkləriylə,
Hərəsi ona bir peyvənd də vurdu.

Qoymadım quruya peyvəndlərini,
Hər biri böyüyüb bir budağ oldu.
Anladım, dadanda meyvələrini,
Zəhərmiş, ürəyə bu bir dağ oldu.

□□□

## *Deputata cavab*

*Bu kiçik şeiri vətəndən kənarda yaşayan yetimləri*
*"otxod" adlandıranlara cavab kimi yazıram*

Hər gecəni qarşılayar xoş bir səhər,
Sözlərinə tut bir ölçü, ya bir təhər.
Eşşək ki var, eşşəkliyində qalandı,
İstər belinə sən gümüşdən bas yəhər.

Danışanda sözlərini çək süzgüyə,
Cümlələrini sal qaydaya, düzgüyə.
"Otxod" ilə hər gün durursan üzbəüz,
Sən baxdıqca tualetində güzgüyə.

Toplasan da, varı dövləti, mülkü sən,
Balıq deyilsən, xırda - mırda kilkisən!
Təhqir edirsən xalqı niyə - ay alçax,
Ortalıqda quyruq buluyan tülküsən!

□□□

## Naməlum bir xanımla cavabsız yazışma

*Yay idi, evə, yəni Sumqayıta getmişdim. Çatdırdılar ki, bəs bir xanımın səndən (guya ki məndən), xoşu gəlir, tanış olmağa belə razıdır, soruşub əhval tutdum, dedilər evlidir, amma əri ondan yaşca çox böyükdür. Xanımın adını demişdilər, amma indi unutmuşam, çünki nə tanışlıq olmadı, nə də söhbət. Baxmayaraq, mən ona minnətdaram, çünki onun sayəsində bu şeirlər yarandı. Ərinin adına isə gəlin şərti olaraq Cabir deyək.*

## *Birinci məktub*

(heyif, tanış ola bilmədik)

Qismət olmadı ki görəydim səni,
Eşitmişəm yalnız gözəl adını.
Bəxş etmədin mənə bircə busəni,
Alam dodağından balın dadını.

Bağda gül- çiçəyi, hayıf, dərmədım,
Dərib sənin üçün çələng hörmədim.
Qoynunda bəslənən bir cüt narını,
Əfsus! Əllərimlə bir kər görmədim.

Aparaydım səni bir yaşıl bağa,
Harda ki ağaclar budaq- budağa.
İçəydik şərabı məst olanadək, `
Duruban üzbəüz, dodaq- dodağa.

Çıxaydıq üçümüz bir el toyuna,
Mən valeh olardım sənin oynuna.
Dostun diqqətini azdırıb hərdən,
Dolardım qolumu sənin boynuna.

Verəydik səninlə bir gün əl- ələ,
Dağları, düzləri birgə aşaydıq.
Yorulub o zaman əldən düşəndə,
Kölgədə oturub qucaqlaşaydıq.

Deyirəm sözümü vaxtında mən də,
Bülbül nəğmə deyir tər yasəməndə.
Sən niyə qaçırsan məndən ay sənəm,
Bənzəyirsən vallah, na`ram* səməndə**.

Mirvari tapmaqçün hər yanı qazdım,
Kim bilir, bəlkə də yolumu azdım.
Xanım, gəl incimə, sən bu yazıdan
Vallah ürəyimdən keçəni yazdım.

Möhtacam sevgiyə və xoş rəftara,
İtirsəm də ömrün çox yarısını.
Cabirtək qocalıb döncək kaftara,
Özünə taparsan bir ayrısını.

□□□

___________

*na'ram* - miniyə öyrədilməmiş, tabe olmayan*
*səmənd** - at növü*

## *İkinci məktub*

(xanımın ərinə müraciət)

Dinlə məni Cabir əmi,
Qoyma qözdən qala zəmi!
Girər olsa tülkü, çaqqal,
Bil, məni öldürər qəmi.

Sevgi deyilən çətin işdi
Həsrətindən bağrım bişdi,

Nədən çıxmayır yadımdan,
Bəlkə Haqqdan baxşeyişdi?

Yandım ürək közlərimə,
İnanan yox sözlərimə.
Kaş sən özün bir baxasan
Yaş tökən bu gözlərimə.

Gəl sənnən açıq danışaq,
Bir yol tapaq, razılaşaq.
Adamsansa, gəl insafa,
Çəkil, qoy, yarnan qovuşaq.

□□□

## *Üçüncü məktub*

(eşitdim xanımın əri rəhmətə gedib, kədərləndim)

Kişi də dünyanı belə tərk etdi,
Görəsən cananı kimə ərk etdi?
Bir vaxtlar deyəsən olubmuş avtoş,
Uzanıb tabuta yaman bərk getdi.

Özünə görə o bir adamıymış,
Adına layiq ad, sanı varıymış.
Necə insan olub, çətındır demək,
Bəlkə də gen dünya ona darıymış.

Gedəndə hamıynan o sağollaşdı,
Qol açıb cananla bərk qucaqlaşdı.
Eyvandan boylanıb qüssə kədərlə,
Dinməz, Xəzərlə də o vidalaşdı.

Düşündü: keçmişim ğözəl çağ imiş,
İgidə qalan tək bir qolçağ imiş.
Səmaya son baxış ataraq dedi:
Bilməmişəm, dünya lap alçağ imiş.

Arvad da özünədi, oğul, qız da,
Mənsiz də ötəcək yay da, payız da.
Əzrayil sayyaddır ki, bərəsinnən,
Keçir külfətli də, elə yalğız da.

Bəlkə də bir yada salan olacaq,
Kiminsə gözləri yaşnan dolacaq,
Təbiət qanunna kim qarşı çıxar.
Bir vaxt açılan gül, bir gün solacaq.

Bizləri gözləyən kimlər, nələrdi?
Şeirə məzmun verən tək cümlələrdi.
Həsr edilsə də o, bəlli bir kəsə,
Sətirlər həyati düşüncələrdi.

□□□

## *Rus dilindən çevrilmiş şeirlər*

*Bu bölmədəki şeirlərin və kupletlərin Azərbaycan dilinə tərcüməsinə görə Sietl (ABŞ) universitetinin professoru Tariyel Azərtürkə və əziz həmyerlim Elçin Qasımova öz təşəkkürümü bildirirəm*

## *Tarixə nəzər*

(tərcüməsi Tariyel Azərtürkündür)

Mürəkkəb tarixlər keçdi canımdan,
Ölməz həqiqətin yanından ötdük.
İmtina eləyib doğma imandan,
Özgə inamına diz çökdürüldük.

Beynimə qılıncla qazıldı yad din,
Qulaqlar kar olub, gözlər kor qaldı.
Niyə qayıtmırıq kökə, danış, din!
Bəlkə qollarımız bağlı, dar qaldı?

Biz ki, günahlarda qandallanmışıq,
Biz ki əxlaq üstə odda yanmışıq,
Tanrıya layiq de, varmı nəyimiz?
Əgər inam boyu nalla çapmışıq!

Bərabərtərəfli səma xaçına,
Səslədi inama Tanrının özü.
Özgə inamına özgə tacımı,
Bizə diz çökdürdü öz-özümüzü?

Qədər yazısıyla şər taleyimiz,
Kor səhra səmtinə döndərdi bizi.
Yadlar qapısında duaya durduq!
Öldürüb öz qüdsal Qorqudumuzu.

□□□

## *20 yanvar*

(tərcüməsi Tariyel  Azərtürkündür)

Döyüş meydanlarını
Bəzəyən gənc meyitlər...
Odur əzablarıyla
Çiynindən qırılmış sol əl
Ay ulduzlu bayrağı
Qanlı sinəyə sıxır
Sönən əzalarıyla...
Qırılan sıralara
Dolur comərd baturlar.
Qəzəbli baxışlarla
Baxır düşmən gözünə
Bir andaca saçları
Tam ağarmış atalar.
Heç kimi qorxudammaz
Tankların nəriltisi,
Tırtılların asfaltı
Doğrayan iyrənc səsi.
Ananın göz yaşıyla
Yuduğu buz səkidən
Öğlun qan ləkəsidi.
Baxışların gizlədib
İçini çəkə-çəkə
Sızlayır gözəl qızlar
"Əlvida!" deyə-deyə
Sevgiyə o yalqızlar.
Tanklar kəsib keçdikcə
Gənclərdən qalır təkcə,

Qan ilə göz yaşının
Axıb yol çuxurların
Doldurduğu gölməçə.

### *Kupletlər*

(tərcüməsi Elçin Qasımovundur)

Dostum nə soruşursan şeirmi yazıram;
Sualınla odlayırsan niyə bağrımı!
Qafiyələr aləmində yolu azıram,
Hər süzdükcə ağ kağıza ürək ağrımı!

□□□

Bulaq suyu kimi axır sətirlər,
Elə bil saplanmış bəyaz incidir...
İnamsız, tanrısız qalanlar için,
Ürəklərin zövqü, həm sevincidir.

□□□

Şirin danışıqlara heç vaxt inanma,
Qapalı qapıyı tələsik açma.
Dalında heç nə yox, desələr qanma
Qapını döyüb də girməkdən qaçma.

□□□

Bəyaz kağızlarda suallar dolu,
Verib cavabını sonra çək qolu,
Mən də heç baxmadan imzamı atdım,

Sən demə ittiham-suç protokolu...

□□□

Nədən bu qədər də hirsli, qəzəbli
Gəzir bu məmurlar, həm də əzəbli.
Baxsan işlərinə - bas bellərinə
Eşşək palanını, süslü, bəzəkli.

□□□

Qış gəlcək, hər tərəf ağ duza dönür,
Yollar donur, çaylar buza bürünür,
Yaş tükəncək qözlər daha ağlamaz
Çünki ürəkdəki qığıicım sönür...

□□□

## *Kitabda olanlar*

*Əziz oxucu.......................................................................3*
*Ненаписанное предисловие……………………………………….4*

### *O saf məhəbbət, sən həyat mənbəyisən*

*Yeddi bacı………………………………………………………….........9*
*Ay yar................................................................................11*
*Sənə can deyərəm............................................................11*
*Yadındamı.........................................................................12*
*Təranə..............................................................................12*
*Rubailər, kupletlər............................................................13*

### *Allah sənə rəhmət eləsin Sabir*

*Sabirə müraciət...............................................................16*
*Ümumi duruma baxış.......................................................17*
*Kim nə görür yuxuda........................................................18*
*Kəmsavadın şikayəti.........................................................20*
*Yolumuz Yevropayadır……………………………………………..….21*
*Ağılar (milli pulumuza)....................................................23*
*Oğlanlarıma müraciət.......................................................25*
*Rubailər, kupletlər............................................................27*

### *Söhbət dindən və yalançı dindarlardan gedir*

*Nə olub görəsən?............................................................30*
*Məsləhət...........................................................................30*
*Molla tələb edir..............................................................31*

*Molla psixologiyası.......................................................33*
*Özünü tanı.....................................................................33*
*Kimlərdi molla olanlar..................................................35*
*Rubailər, kupletlər........................................................36*

*Allah yolunda*

*Allah hər yerdə varlıqdır...............................................38*
*Hər addım Allah kəramətidir.........................................39*
*Müraciət......................................................................41*
*Narazılıq......................................................................41*

*Ata və anaya ehtiram*

*Atam və Anam..............................................................44*
*Anama...........................................................................45*

*Vətən düşücələri*

*20 yanvar.......................................................................48*
*Vətənim.........................................................................50*
*Azərbaycanım...............................................................51*
*Muğam..........................................................................52*
*Keçmişə baxış...............................................................53*
*Dağlar...........................................................................54*
*Hanı?.............................................................................56*
*Xəzərlə söhbət..............................................................57*
*Araz..............................................................................58*
*Müqayisələr..................................................................58*
*Dağlarla söhbət.............................................................59*
*Şuşa..............................................................................60*

*Əsgərin ölümünə.......................................................60*
*Rəhbərlərə müraciət................................................61*
*Rubailər, kupletlər..................................................62*

*Həyat düşüncələri*

*Deyiləm.................................................................64*
*Dərdini çək.............................................................65*
*Türklər demişkən.....................................................65*
*Tale yazısını anlamaq olmaz....................................66*
*Hər şey dəyişir.........................................................67*
*Bəlkə də olar..........................................................68*
*Deyil.......................................................................68*
*Xalqının balası ol....................................................69*
*Niyə........................................................................70*
*İllərə.......................................................................71*
*İllər.........................................................................71*
*Rubailər, kupletlər..................................................72*

*İthaflar*

*Portretə cizgilər......................................................77*
*Kəndimizin çobanlarına..........................................79*
*Xatirələr mənzərəsi..................................................80*
*Leyla xanıma..........................................................83*
*Tərifnamə...............................................................84*
*Xatirələr..................................................................85*
*Məktəb illəri............................................................86*
*Deputata cavab.......................................................87*

*Naməlum bir xanıma cavabsız məktublar*

*Birinci məktub.......................................................89*
*İkinci məktub.........................................................90*
*Üçüncü məktub.....................................................91*

*Rus dilindən çevirmələr*

*(Tariyel Azərtürk)*

*Tarixə nəzər...........................................................94*
*20 yanvar...............................................................95*

*(Elçin Qasımov)*

*Kupletlər…………………………………………………………….96*

**Rüstəm Rüstəmov**

# Portretə cizgilər

Şeirlər toplumu
*(azərbaycan dilində)*

Redaktor:  Leyla Bağırova
Korrektor:  Elçin Qasımov
Kompyuterdə yığım:  Elçin Qasımov
Rüstəm Rüstəmov

Nəşr edilmlşdir:
MHC TSMİK nəşriyyatı 150014
Yaroslavl, Qələbə küçəsi 51, korp. 2
tel. (4852) 200-121, www.yarcmyk.ru
sifariş №

**Рустам Рустамов**

**Штрихи к портрету**

сборник стихов
*(на азербайджанском языке)*

Редактор: Лейла Багирова
Корректор: Эльчин Гасымов
Компьютерная верстка: Эльчин Гасымов
Рустам Рустамов

Отпечатано:
ООО ЦМИК, 150014
Г. Ярославль, ул Победы 51, корп. 2
Тел. (4852) 200-121, www.yarcmik.ru
Заказ №

*Seir yazmaq;*
*ağlamaq, elə də, gülmək deməkdir,*
*hər sözün yerini bilmək deməkdir...*
*fərqi yoxdu, hanqi dildə yazırsan,*
*kimnənsə fikrini bölmək deməkdir.*



*Rüstəm Rüstəmov 1952 – ci ildə Azərbaycan respublikasının Qazax şəhərində anadan olmuşdur, orta məktəbi indiki Ermənistan respublikasında bitirdikdən sonra, az müddət Bakıda yaşamış, və hərbi xidmətə çağrılmışdı. Hazırda Rusiyada yaşayır. Rus dilində bir romanı, bir şeirlər toplumu və şahmata dair iki kitabı(dərslik və tapşırıqlar) dərc edilmişdir.*